“Satınalmalar üzrə məlumatların təqdim edilməsi” elektron xidmətinin İstifadəçi təlimatı

“Satınalmalar üzrə məlumatların təqdim edilməsi” məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.



Giriş bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza” və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.

İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.



İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə SİMA Token kompüterə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.

Növbəti mərhələdə açılan yeni pəncərədə **"Ərizələr"** modulu seçilir.



Daha sonra "Satınalmalar üzrə məlumatların təqdim edilməsi" məqsədilə "Yeni ərizə" xanasına müraciətə uyğun məlumat formasının adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan məlumat forması seçilir və yaxud **"Hamısına bax"** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq məlumat forması seçilir.



Əgər istifadəçi tərəfindən daha əvvəl bu məlumat forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış məlumat formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi tərəfindən əvvəllər qaralaması yaradılmış məlumat forması üzrə davam etmək istənildikdə ekranda qaralaması olan məlumat forması seçilir və bu zaman aktivləşən “Davam et” düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş məlumat forması açılır və düzəliş imkanı mümkün olur.



Yeni məlumat forması yaratmaq istənildikdə isə **“Yeni ərizə yarat”** seçilir və **“Davam et”** düyməsi sıxılır.



Açılmış məlumat formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla məlumat formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış məlumat formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış məlumat formasını yadda saxlamaq mümkün olur.





Açılmış məlumat formasında “Vergi orqanı” və “Vergi ödəyicisi” barədə məlumatlar avtomatik olaraq doldurulur.



Növbəti mərhələdə dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satınalması üzrə bağlanmış müqavilələr barədə məlumatı daxil etmək üçün “Əlavə et” düyməsi sıxılır.





“Əlavə et” düyməsi sıxmaqla açılan “Dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satınalması üzrə bağlanmış müqavilələr barədə məlumat” pəncərəsində ilkin olaraq “Malgöndərən (podratçı) vergi ödəyicisinin məlumatları” bölməsi üzrə məlumatlar daxil edilir.



Növbəti mərhələdə “Satınalmanı həyata keçirən təşkilatın məlumatları” bölməsi üzrə məlumatlar qeyd olunur.



Daha sonra “Büdcə xərc təsnifat kodu və maliyyələşmə məlumatları” bölməsi üzrə məlumatlar daxil edilir.

Qeyd: Büdcə xərc təsnifat kodları üzrə ətraflı məlumatı “Büdcə xərc təsnifat kodlarına buradan baxa bilərsiniz.” sətri üzrə seçim etməklə ala bilərsiniz.



Yekun olaraq “Müqavilə məlumatları” bölməsi üzrə məlumatlar daxil edildikdən sonra aktivləşən “Yadda saxla” düyməsi sıxılır və əlavə edilmiş məlumatlar ekranda əks olunur.



Dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satınalması üzrə bağlanmış müqavilələr barədə məlumatlar üzrə düzəlişə ehtiyac olduqda məlumatlar əks olunmuş sətrin sonundakı “ ” düyməsi sıxılaraq məlumatlar redaktə edilə, “ ” düyməsi sıxılaraq daxil edilmiş məlumatlar silinə bilər.



Növbəti mərhələdə **“Tanış oldum, məlumatların doğruluğunu təsdiqləyirəm”** butonu seçilir.



Daha sonra məlumat formasının göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.



“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq məlumat forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.



“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə **“İmtina”** düyməsi seçildikdə yenidən əvvəlki pəncərəyə (məlumat formasının doldurulması pəncərəsinə) geri qayıdılır.

“İmtina” düyməsini sıxdıqdan sonra ekranda əks olunana “Sil” düyməsini sıxmaqla arayış forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.





Məlumat forması imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun məlumat forması və müvafiq formanın göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə “**Çap”** düyməsi vasitəsi ilə məlumat forması çap

edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. “**Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulur.



İstifadəçi tərəfindən təqdim olunan **“**Satınalmalar üzrə məlumatların təqdim edilməsi” məlumat forması onun “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə məlumat formasının statusu barədə məlumat qeyd olunur. Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.


AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİ
Əsas səhifə
Məktublar
Bəyannamələr
Büdcə ilə hesablaşmalar
ƏDV Depozit Hesabı
E-qaimə-fakturalar
Ərizələr
Ödəniş
Paketlər
Digər
Ərizələr 2025
Filtr
Köhnə sistemə keçid
Yeni Ərizə
Hamısına bax
Göndərmək istədiyiniz ərizənin növünü daxil edin
Göndərilənlər
Qaralamalar
Təsdiq gözləyən
Sırala: Təqdim olunma tarixi
Ərizə
Qeydiyyat nömrəsi
Status
Əməliyyatlar
Satınalmalar üzrə məlumatların təqdim edilməsi
Təqdim edildi: 13.05.2025
2516010000215600
Sənəd göndərilib
Endir
Monitorinq iştirakçısı kimi və ya monitorinqdə iştirak edən digər şəxs kimi qeydiyyata alınma barədə
Təqdim edildi: 12.05.2025 | Son dəyişiklik tarixi: 12.05.2025
2517010000351300
İcra üçün verma
Endir
Sorğu edilən ödəyicilər üzrə hesabatın göndərilməsi
Təqdim edildi: 05.05.2025
2517010000329800
Sənəd göndərilib
Endir
Hüquqi şəxslərin dövlət reyestr məlumatları barədə sorğu
Təqdim edildi: 24.04.2025 | Son dəyişiklik tarixi: 24.04.2025
2517010000321200
İcra üçün verma
Endir
Monitorinq iştirakçısı kimi və ya monitorinqdə iştirak edən digər şəxs kimi qeydiyyata alınma barədə
Təqdim edildi: 17.04.2025 | Son dəyişiklik tarixi: 17.04.2025
2517010000309400
İcra üçün verma
Endir
Monitorinq iştirakçısı kimi və ya monitorinqdə iştirak edən digər şəxs kimi qeydiyyata alınma barədə
Təqdim edildi: 14.04.2025
2517010000308700
Sənəd göndərilib
Endir
Məhkumluğun olub-olmaması barədə
Təqdim edildi: 14.04.2025
2516010000206600
Sənəd göndərilib
Endir
Podratçı tərəfindən və ya əməliyyat şirkətlərinin ƏDV-dən sıfır faiz (0%) dərəcə ilə azad olunma haqqında e-sertifikat alması üçün ərizə
2516010000201100
Sənəd göndərilib
Endir